*Qarabağın görkəmli simaları*

# Əbdüləli bəy Muxtarov



**Həyatını bütünlüklə öz xalqına, millətinə xidmətə və gənc nəslin maariflənməsinə həsr etmiş görkəmli pedaqoqlardan biri olan Əbdüləli bəy Bağır oğlu Muxtarov 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdur.**

Jurnalist-etnoqraf Ənvər Çingizoğlu yazır ki, Əbdüləli bəy Qarabağda, Şuşada tanınmış olan muxtarovlar soyuna mənsubdur. Bu soy Şuşada Hacıəsgərlilər tayfasına bağlıdır. Hacıəsgərlilər Pənahəli xan Cavanşirin dövründə Təbrizə aid olan Məməqan qəsəbəsindən gəlmişdilər və Şuşanın Təbrizli məhəlləsində məskunlaşmışdılar. Babası Əsgər Muxtar oğlu Şuşa şəhərində anadan olmuşdu. Mədrəsə təhsili almışdı. İbrahimxəlil xan Sarıcalı-Cavanşirə xidmət etmişdi. Əbdüləli bəy Muxtarov ibtidai təhsilini molla yanında almışdı. Sonra Şəhər məktəbində oxumuşdu. Dövlətdən bəy ünvanı almışdı. **O, şəhər məktəbini tamamlayandan sonra Qazax qəzasının Dağ Kəsəmən kəndinə müəllim göndərilmişdi. Bir müddət burada müəllim işləyəndən sonra Ağcabədi kənd məktəbinə müdir (nazir və ya nəzarətçi deyilirdi) vəzifəsinə dəyişilmişdi. Onun Ağcabədiyə gəlişi ilə bu bölgədə mədəniyyətin, maarifin, səhiyyənin səviyyəsi artmışdı.** 1889-cu ildə Ağcabədi kənd məktəbi əl işlərinin sərgisinə görə gümüş medalla təltif edilmişdi.

Əbdüləli bəyin maarifçilik təsirləri, məruzələri, söhbətləri getdikcə öz işini görürdü. Əhali get-gedə məktəbdə yeni siniflər açılmasını tələb edirdi, məktəbin tam kursunu bitirənlər aldıqları təhsil ilə kifayətlənmir, təhsillərini davam etdirmək üçün digər məktəblərdə yer axtarırdılar.

**Ağcabədi kənd məktəbi nəzdində meteoloji stansiya təşkil edilmişdi. 1891-ci ildə məktəbin müdiri Ə.Muxtarov tərəfindən atmosfer yağıntısı üzərində aparılan aylıq müşahidələr dərc edilmək üçün Sankt-Peterburqa-Baş fizika rəsədxanasına göndərilmişdi.**

Əbdüləli bəyin Ağcabədidə apardığı mədəni-maarif işləri get-gedə öz bəhrəsini verirdi. Əhali arasında savadlanma artırdı. O, bəzən həkimlik vəzifəsini də öhdəsinə götürür, camaata tibbi xidmət göstərirdi. 1892-ci ildə Ağcabədi kənd məktəbində aptek açılmışdı.

Əbdüləli bəy Muxtarovun maraq dairəsi böyük olsa da, pedaqoq kimi daha dərindən nüfuz etdiyi bir problem vardı: Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında türk övladlarına dərs demək.

**Əbdüləli bəy Muxtarov uzun müddət Seminariyanın hazırlıq sinifində dərs demişdi. Burda oxuyan uşaqlara dərsdən əlavə nəzakət qaydalarını da öyrədirdi. 1896-cı ildə Ağcabədi kənd məktəbinin müdiri Əbdüləli bəy Muxtarovun Zaqafqaziya (Qori) Müəllimlər Seminariyası nəzdindəki ibtidai məktəbə müdir təyin edilməsi ilə əlaqədar olaraq Camal bəy Fətəlibəyov Ağcabədi kənd məktəbinə müdir vəzifəsinə təyin edildi. Onun məktəbini isə Səməd bəy Ağayev davam etdirdi.**

Öz zəngin daxili-mənəvi dünyası, möhkəm iradəsi və geniş dünyagörüşü ilə Azərbaycan xalqının qəlbində özünə əbədi hörmət və məhəbbət qazanmış Əbdüləli bəy Muxtarovun əziz xatirəsi xalqımızın qəlbində daim yaşayacaq, gələcək nəsillərə nümunə göstəriləcəkdir.